DİPLOMA ƏLAVƏNİN NÜMUNƏSİNİN TƏSDİQİ BARƏDƏ
AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRİNİN
ƏMRİ

Boloniya bəyannaməsinin əsas müddəalarından biri də tələbələrə diploma əlavənin verilməsidir. Bununla bağlı Avropa Şurası, Avropa Komissiyası və YUNESKO/CEPES-in yaratdığı birgə işçi qrupu tərəfindən qeyd olunan sənədin nümunəsi hazırlanmışdır. Azərbaycan Respublikasının bu prosesə qoşulduğunu nəzərə alaraq həmin sənəd əsasında «Ali təhsil haqqında (bakalavr/magistr) diploma Əlavənin nümunəsi» hazırlanmışdır. Azərbaycan Respublikasında ali təhsil müəssisələrinin məzunlarına diploma əlavənin Boloniya Bəyannaməsinin tələblərinə uyğun verilməsini təmin etmək məqsədilə

## ƏMR EDİRƏM:

1. «Ali təhsil haqqında (bakalavr/magistr) diploma Əlavənin nümunəsi» təsdiq edilsin (əlavə olunur)
2. Ali təhsil müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, rəhbərlik etdikləri ali təhsil müəssisələrində ali təhsil haqqında diploma yeni əlavənin hazırlanmasını və tətbiqini həmin sənəddə tövsiyyə olunan qaydada aparsınlar.
3. Aparatın rəhbəri (İ.Pirməmmədov), ali və orta ixtisas təhsili şöbəsinin müdiri (İ.Mustafayev) bu əmrin icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirsinlər.

**Əsas: Təhsil Nazirliyi Aparatının və Ali və orta ixtisas təhsili şöbəsinin nazirin müvafiq dərkənarı ilə təqdimatı**

***Misir Mərdanov***
***Təhsil naziri***
***08 avqust 2008-ci il***
***№ 990***

**Təsdiq edirəm:**
***Təhsil naziri:***

**____________M.MƏRDANOV**

**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyinin**

**«____»_________2008-ci il tarixli**

**«______» №li əmrə əlavə**

# Ali təhsil haqqında (bakalavr/magistr) diploma ƏLAVƏNİN nümunəsi

**Bakı 2008**

Azərbaycan Respubliksında ali təhsil haqqında diploma əlavənin nümunəsi Avropa Komissiyası, Avropa Şurası və YUNESCO/CEPES-in ekspertlərindən ibarət işçi qrupu tərəfindən hazırlanmış diploma əlavənin modeli əsasında tərtib edilmişdir. Respublikada fəaliyyət göstərən hər bir ali təhsil müəssisəsi bu nümunə əsasında özünün diploma əlavəsinin formasını hazırlayır.

Diploma əlavənin nümunəvi modeli 8 bölmədən ibarətdir:

1. ixtisas dərəcəsini alan şəxs haqqında məlumat;
2. ixtisas dərəcəsi haqqında məlumat;
3. ixtisas dərəcəsinin səviyyəsi haqqında məlumat;
4. təhsilin məzmunu və alınan nəticələr haqqında məlumat;
5. ixtisas dərəcəsinin funksiyaları haqqında məlumat;
6. əlavə məlumatlar;
7. milli təhsil sistemi haqqında məlumat.
8. diploma əlavənin təsdiqlənməsi;

Əlavənin məqsədi Avropa ölkələrində diplomların qarşılıqlı tanınması ilə bağlı yaranmış problemləri aradan qaldırmaq, ixtisas dərəcələrinin beynəlxalq tanınmasında şəffaflığı təmin etmək, məzunların akademik və əmək bazarında mobilliyinin səviyyəsini artırmaq, diplomların xaricdə tanınmasına şərait yaratmaqdan ibarətdir.

Diploma əlavə təhsil müəssisəsi tərəfindən tələbələrin istəyi ilə pulsuz verilir. Diploma əlavə azərbaycan dilində və Avropada geniş yayılmış dillərdən birində (bir qayda olaraq ingilis dilində) doldurulur.

## I. Diploma əlavənin ümumi strukturu

Diploma əlavə ixtisas dərəcəsini alan şəxs barədə məlumatları və onun müvəffəqiyyətlə başa çatdırdığı təhsilin xarakterini, səviyyəsini, məzmununu və statusununu özündə əks etdirir.

Əlavədə subyektiv qiymətləndirmələrə, ekvivalentlik haqqında bəyanatlara və ya tanınma ilə bağlı təkliflərə yol verilmir.

Məlumatlar yuxarıda qeyd olunan 8 bölmə üzrə verilir. Əgər əlavənin hər hansı bir bölməsi üzrə məlumat yoxdursa, onda bunun səbəbi göstərilməlidir.

**1. İxtisas dərəcəsini alan şəxs haqqında məlumat**

1.1 Soyadı:
1.2 Adı:
1.3 Atasının adı
1.4 Doğum tarix (gün/ay/il):
1.5 Tələbənin şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və ya ona təhsil müəssisəsi tərəfindən verilən kod:

**2. İxtisas dərəcəsi haqqında məlumat**

2.1 a) ixtisasın adı;
b) alınan ixtisas dərəcəsi;
(verilən dərəcənin respublikada mövcud olan qanunvericiliklə müdafiə olunması)
2.2 İxtisas dərəcəsi üçün əsas təlim sahəsi;
2.3 İxtisas dərəcəsini vermiş təhsil müəssisəsinin adı və statusu (diplomda olduğu kimi);
2.4 Təlim aparmış müəssisənin adı və statusu (diplomda olduğu kimi);
2.5 Təlim (imtahan) dili.

**3. Peşə ixtisas təhsilində ixtisas dərəcəsinin səviyyəsi haqqında məlumat**

3.1 Peşə ixtisas dərəcəsinin səviyyəsi;
3.2 Proqramın mənimsənilməsinin rəsmi müddəti (il və ümumi tədris saatlarının miqdarı);
3.3 Qəbul zamana qoyulan tələblər (müvafiq ixtisas dərəcəsinin səviyyəsinə qəbul olunmaq üçün tələb olunan əvvəlki təhsil dərəcəsi).

**4. Təhsilin məzmunu və alınan nəticələr haqqında məlumat**

4.1 Təhsilin forması (əyani, qiyabi, axşam, distant və s.);

4.2 Proqramın məqsədi, tələbləri;
4.3 Proqram haqqında ətraflı məlumat (tədris olunan fənlər, saatlar, müəyyən olunmuş kreditlər və qiymətlər göstərilməklə);
4.4 Qiymətləndirmə sisteminin və qiymətlərin bölünməsi sxemi;
4.5 Proqramın mənimsənilməsinin yekun qiyməti (adi, fərqlənmə)

**5. İxtisas dərəcəsinin funksiyaları haqqında məlumat**

5.1 Gələcəkdə təhsil almaq imkanları;
5.2 Peşə dərəcəsi (müvafiq peşə üzrə ixtisas dərəcəsini və həmin dərəcəni təsdiq edən qanunvericilik aktlarını göstərməklə).

**6. Əlavə məlumatlar**

6.1 Əlavə məlumatlar (təcrübələrin harada keçirilməsi, proqramın müəyyən hissəsi digər ali məktəbdə öyrənilməsi haqda məlumatlar göstərilməli);
6.2 Əlavə məlumat mənbələri

**7. Milli ali təhsil sistemi haqqında məlumat.**

7.1 Təhsil sistemi haqqında ümumi məlumat;

**8. Diploma əlavənin təsdiqlənməsi**

8.1 Tarix (ali məktəbi bitirmə tarixi);
8.2 İmza;
8.3 Vəzifə (rektor, prorektor);
8.4 Təhsil müəssisəsinin möhürü.

## II. Diploma əlavənin tərtibinə dair izahat

**1.İxtisas dərəcəsini alan şəxs haqqında məlumat**

1.1.Soyadı.
1.2.Adı.
1.3.Atasının adı.
1.4.Doğulduğu gün, ay, il
1.5.Tələbənin şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və ya ona təhsil müəssisəsi (əgər tətbiq olunubsa) tərəfindən verilən kod

**2. İxtisas dərəcəsi haqqında məlumat**

2.1. İxtisasın və ixtisas dərəcəsinin adı azərbaycan dilində bütöv şəkildə göstərilməlidir.

İxtisas Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli, 4 saylı qərarı ilə təsdiq olunmuş «Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı»na və ya ona bərabər tutulan sənədə uyğun olmalıdır.

Əlavədə göstərilən ixtisas dərəcəsinin Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğunluğu qeyd olunmalıdır.

2.2. İxtisas üzrə təhsil sahəsini göstərərkən ona uyğun mütəxəssisin gələcəkdə fəaliyyət göstərəcək sahələr qeyd olunmalıdır. (Məs. məzun filologiya istiqamətinə daxil olan «Azərbaycan dili və ədəbiyyatı» ixtisasını bitirdikdə həmin ixtisas onun əsas fəaliyyət sahəsi kimi göstərilməlidir).

2.3. İxtisas dərəcəsini vermiş təhsil müəssisəsinin adı azərbaycan dilində bütöv şəkildə göstərilməlidir. Burada həmçinin təhsil müəssisənin statusu (dövlət, qeyri-dövlət), lisenziyası və akkreditasiyası barədə məlumat verilməlidir.

İxtisas dərəcəsi Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada verilmiş lisenziyası və ya hər hansı bir akkreditasiyası olan ali təhsil müəssisəsinin struktur bölməsi (filialı) tərəfindən də verilə bilər. Bu halda həmin filialın adı bütöv şəkildə yazılmalıdır.

2.4. Təlim aparmış təhsil müəssisəsinin adı və statusu bütöv şəkildə ilkin sənəddə olduğu kimi göstərilməlidir.

2.5. İxtisas dərəcəsini almaq üçün təlim (imtahanlar) aparıldığı dil bütöv şəkildə göstərilməlidir. (Məs. Azərbaycan dili; rus dili; ingilis dili və s.)

**3.İxtisas dərəcəsinin səviyyəsi haqqında məlumat**

3.1. Peşə ixtisas dərəcəsinin səviyyəsi və onun milli ixtisas dərəcələrinin struk-turunda yeri dəqiq göstərilməlidir. (Məs. ali təhsilli bakalavr, magistr, doktor və s.)

3.2. Təlimin rəsmi müddəti (təcrübələr daxil olmaqla) illər, həftələr, tələbənin ümumi tədris yükü (saat və ya kreditlə) göstərilməlidir.

3.3. Burada təhsilin müəyyən pilləsinə qəbul olunanın əvvəlki təhsilinə qoyulan tələblər göstərilməli. (Məs. bakalavr pilləsinə qəbul olunan şəxs ümumi orta təhsilli, orta ixtisas təhsilli və s. olmalıdır; magistr pilləsinə daxil olun şəxs bakalavr təhsilli olmalıdır). Qəbul imtahanları haqqında məlumat da verilməlidir.

**4. Təhsilin məzmunu və əldə edilmiş nəticələr haqqında məlumat**

4.1. Təhsilin forması göstərilməli. (Məs. əyani, axşam, qiyabi, distant və s.)

4.2. Burada ixtisas dərəcəsini almaq üçün mütəxəssis hazırlığında dövlət standartları ilə müəyyənləşdirilən minimum biliklər göstərilməli, kurs və buraxılış işləri (dissertasiya) və ixtisas dərəcəsini səciyyələndirməyə imkan verən detallar haqqında məlumatlar verilməlidir.

4.3. Bu bölümdə tələbənin kurslar üzrə keçdiyi fənlər, alınan kreditlər və qiymətlər göstərilməlidir. Burada həmçinin buraxılış işinin və ya dissertasiyasının müdafiəsi barədə qeydlər olmalıdır. Məlumatlar aşağıda göstərilən forma üzrə göstərilə bilər:

| № | Fənlərin adı | Kreditlər | Saatlar | Qiymətlər |
|---|---|---|---|---|
| | 1 kurs | | | |
| | … | | | |
| | 2 kurs | | | |
| | … | | | |
| | 3 kurs | | | |
| | … | | | |
| | 4 kurs | | | |
| | … | | | |

4.4. Qiymətləndirmə sistemi haqqında məlumat göstərilməlidir və tələbələrin hazırlığ səviyyəsinin qiymətləndirilməsi öz əksini tapmalıdır.

4.5. Bu bölümdə proqramın mənimsənilməsinin yekun qiyməti göstərilməlidir.

**5. İxtisas dərəcəsinin funksiyaları haqqında məlumat**

5.1 Burada ixtisas dərəcəsinin sonradan akademik və ya peşə təhsili almaq imkanını təmin etdiyini, xüsusilə də müəyyən bir ixtisas dərəcəsi və ya təhsil səviyyəsi almaq, məsələn, doktoranturada oxumaq hüququnu verdiyini göstərmək lazımdır.

5.2 İxtisas dərəcəsini alanın peşəsi və hansı peşə fəaliyyəti ilə məşğul olmaq hüququ göstərilməlidir. Peşəkar fəaliyyət baxımından ixtisas dərəcəsi alana işədüzəlmə zamanı peşə fəaliyyəti sahəsində hansı hüquqların verildiyi və bu hüquqların hansı səlahiyyətli orqanlar tərəfindən təmin olunduğu göstərilməlidir.

**6.Əlavə məlumatlar**

6.1 Əvvəlki bölmələrə daxil olmamış, lakin ixtisas dərəcəsinin dəyərləndirilməsi üçün maraq doğuran digər məlumatlar verilməlidir. Burada ixtisas dərəcəsi almaq üçün cəlb edilən ali məktəb və digər müəssisələr göstərilməlidir. Eyni zamanda ixtisas dərəcəsini verən ali məktəb haqqında müvafiq məlumatlar da daxil edilə bilər.

6.2 İxtisas dərəcəsi ilə bağlı əlavə məlumat mənbələri göstərilməlidir: məsələn, ali təhsil müəssisəsinin veb-saytı, ali məktəbin fakültəsi, milli məlumat mərkəzi; Təhsil Sənədlərinin Rəsmi Tanınması üzrə Avropa Birliyinin Milli Məlumat Mərkəzi (NARIC); Təhsil və Mobillik Haqqında Sənədlərin Tanınması üzrə Avropa Şurasının/YUNESKO-nun Məlumat Mərkəzləri (ENİC).

**7. Milli ali təhsil sistemi haqqında məlumat**

7.1 Milli ali təhsil sistemi haqqında məlumat verilməli, tələbə qəbulunun tələbləri, qiymətləndirmə sistemi, ali təhsil müəssisələrinin növləri və təhsil sisteminin quruluşu haqqında məlumat göstərilməlidir.

**8. Diploma əlavənin təsdiqlənməsi**

8.1 Diploma əlavənin verilmə tarixi. Bu tarix ixtisas dərəcəsinin verilmə tarixi ilə eyni olmaya da bilər.

8.2 Diploma əlavəni təsdiq edən rəsmi şəxsin adı, soyadı və imzası.

8.3 Təsdiq edən şəxsin vəzifəsi.

8.4 Diploma əlavənin həqiqiliyini təsdiq edən təhsil müəssisəsinin möhürü.

## Diploma əlavələrin tərtib olunmasının əsas prinsipləri və ümumi qaydaları

## Əsas prinsiplər

Diploma əlavə aşağıda qeyd olunan prinsiplər əsasında tərtib edilməlidir.

Diploma əlavə:

• təhsil sahəsində yerli xüsusiyyətləri özündə əks etdirən çevik bir sənəddir. O, təhsilalma ilə bağlı verilən qiymət kitabçasından çıxarışı, akademik arayışı və digər bu kimi sənədləri əvəz edə bilər. Əlavədə məlumatların təklif olunan ardıcıllıqla verilməsi tövsiyə olunur;

• daxili və beynəlxalq tanınmanı təmin edən mexanizmdir. Bu sənəd diplomların tanınması prosudurunu asanlaşdırmaq üçün tərtib olunmuşdur;

• mütəxəssisin akademik və peşə hazırlığının tanınmasını asanlaşdırır. Bu sənəd ali məktəblər, tələbələr, dövlət təşkilatları və işəgötürənlər üçün faydalı ola bilər;

• ixtisas dərəcəsi haqqında maraqlı şəxslərə kifayət qədər obyektiv məlumat verir və ekvivalentlilik haqqında subyektiv qiymətləndirməni istisna edən bir yanaşmadır. Bu sənəd mexaniki tanınmanı təmin etmir. O hüquqlara toxunmadan yalnız ekspertiza etmək və qərar çıxarmaq üçün yardımçı ola bilər;

• həssaslıqla yanaşmanı tələb edən sənəddir. Əlavədən istifadə edənlər əsas diqqəti təlimin nəticələrinə yönəltməli və verilən kəmiyyət və keyfiyyət göstəriciləri əsasında nəticə çıxarmalıdırlar;

• istifadə edənləri çaşdırmamaq üçün lüzumsuz məlumatlarla ağırlaşdırılmamış sənəddir. Bununla belə diploma əlavə heç bir əlavə göstərici tələb etmədən qiymətləndirmə aparmağa imkan verən bütün zəruri məlumatları özündə ehtiva (əks) etməlidir;

• təhsil haqqında əsas sənədə əlavədir. Bu sənəd dəyişməz olaraq qalmalıdır (qəbul olunmuş formada və secilmiş dildə). Bu əlavə ixtisas dərəcəsini təsdiq edən təhsil haqqında sənədi (diplomu) əvəz etmir, yalnız ona köməkçi bir sənəddir.

**Ümumi qaydalar**

Əlavə tərtib edilərkən aşağıdakı tövsiyyələrə əməl olunması məqsədəuyğundur:

1. Ali məktəblərin, vətəndaşların, işəgötürənlərin, istifadəçilərinin və digərlərinin məlumatlandırılması üçün əlavənin hər bir bölümünə yuxarıda göstərilən çərçivə daxilində qısa izahat verilməlidir.
2. Təhsil müəssisələri təklif olunan struktura və ardıcıllığa riayət etməlidirlər. Əlavənin tərtibatı zamanı hansısa məlumatın unudulmasına, qarışıq, uzun və mürəkkəb yazılara yol verilməməlidir. Sənəd qısa və lakonik olmalıdır.
3. Əlavə verilən ixtisas dərəcəsi və sahibinin ondan istifadə etmək məqsədinə nə dərəcədə uyğun olduğu barədə fikir söyləməyə imkan verməlidir. Diploma əlavə CV-ni əvəz etmir, o, yalnız əlavə informasiya mənbəyidir.
4. Əlavə bütün hallarda təhsil haqqında sənədin əsli ilə müşayiət olunmalıdır. Onun hüquqi qüvvəsi yoxdur. Diploma əlavə təhsil müəssisəsinin statusuna, onun verdiyi təhsil haqqında sənədlərə zəmanət vermir, lakin bu cəhətlər əlavədə əks olunmalıdır.
5. İxtisas dərəcəsinin adı, eləcə də təlimi həyata keçirən və bu dərəcəni verən ali təhsil müəssisələrinin adı və statusu milli dildə verilməlidir. Çünki dəqiq olmayan tərcümə ixtasası dəyərləndirən şəxsləri çaşdıra bilər.
6. Əlavədə subyektiv qiymətləndirmələrə, ekvivalentlik haqqında bəyanatlara və ya tanınmaq haqqında təkliflərə yol verilməməlidir. Əlavələrdə bəzi məlumatların olmadığı halda onun səbəbləri göstərilməlidir.
7. Əlavələrin ali məktəb tərəfindən mərkəzləşdirilmiş qaydada hazırlanması daha məqsədəuyğundur.
8. Təhsil müəssisələri əlavələrin saxtalaşdırılması və təhrifinə qarşı bütün tədbirləri həyata keçirməlidir.
9. Ölkənin ali təhsil sistemi haqqında məlumatlar iki səhifədən çox olmamalıdır. Bu məlumatlar sxem və diaqramlarla müşayiət oluna bilər. Onlar mərkəzləşmiş şəkildə hazırlanmalıdır. Bu işə Təhsil Nazirliyi və Rektorlar Şurası yardımçı olmalıdırlar.
10. Diploma əlavənin təlimin başa çatdığı müddətdə hazırlanması daha məqsədəuyğundur. Əlavədə verilən ali təhsil sistemi haqqında məlumatlar ixtisas dərəcəsinin verildiyi vaxta uyğun olmalıdır.
11. Tərcüməyə və terminologiyaya xüsusi fikir verilməlidir. Bununla əlaqədar əlavədə göstərilən yerlərdə milli dildən istifadə edilməlidir. Əlavə təhsil müəssisəsinin lazım bildiyi istənilən dildə yazıla bilər.
12. Əlavədən ehtiyatla istifadə olunmalı. Xaricdə verilən ixtisas dərəcələrinin qiymətləndirilməsi zamanı əldə olunmuş təcrübə və biliklərdən istifadə olunmalıdır.

(Əlavəni təqdim edən ali təhsil müəssisəsinin loqotipi)

*A 250310* bakalavr diplomuna
(diplomun nömrəsi və seriyası)

**ƏLAVƏ**
***B - 000001***
(Əlavənin nömrəsi və seriyası)

*Azərbaycan Respublikası,*
*Bakı*
*Dövlət*
*Universiteti*
(ölkənin və diplom verən ali təhsil müəssisəsinin bütöv adı)

**1.İxtisas dərəcəsini alan şəxs haqqında məlumat:**

*1.1.* *Əliyev*
(Soyadı)

1.2. *Məmməd*
(Adı)

1.3. *Hüseyn*
(Atasının adı)

*1.4.* *Bakı şəhəri, 05 iyul 1988*
(anadan olduğu yer, il, ay, gün)

1.5. *Şəxsiyyət vəsiqəsi seriya*
*AZE № 05020837*
(şəxsiyyəti təsdiq edən sənədin nömrəsi və ya təhsil müəssisəsi tərəfindən tələbəyə verilmiş kod)

**2.İxtisas dərəcəsi haqqında məlumat**

2.1. *İqtisadiyyat bakalavrı*

2.2.
(ixtisas dərəcəsinin adı)

*İqtisadi kibernetika*

(ixtisas dərəcəsi üzrə təlim sahəsi)

*Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğundur*

(ixtisas dərəcəsinin qanunvericiliklə müdafiə olunması)

2.3. *Bakı Dövlət Universiteti 1919-cu ildə Azərbaycan Cümhuriyyəti Parlamentinin qərarı ilə yaradılmışdır.*
*2007-ci ildə akreditə olunmuşdur*
(ixtisas dərəcəsini vermiş ali təhsil müəssisəsinin adı və statusu)

*2.4.* *Bakı Dövlət Universiteti*

(təlimi həyata keçirən ali təhsil müəssisəsinin adı)

## 3.İxtisas dərəcəsinin səviyyəsi haqqında məlumat

3.1. *ali təhsilin bakalavr pilləsi*
(ixtisas dərəcəsinin səviyyəsi)

3.2. *4 il, 198 həftə, ümumi saatlar - 5400, kredit - 240, (1 kredit - 22,5 saat və ya 1 həftəlik yük - 2 kreditdir)*
(təlim müddəti: il, həftə, tədris saatı, kredit)

*3.3. Bakalavr pilləsinə qəbul olunmaq üçün əsas şərt: ümumi orta təhsili haqqında sənədin (attestat və ya orta ixtisas təhsili müəssisəsi və ya peşə litseyi tərəfindən verilmiş diplom) olması və Respublikada müəyyən olunmuş qaydada qəbul imtahanlarından müvəffəqiyyətlə keçməsi.*
(qəbul zamanı qoyulan tələblər)

## 4.Təhsilin məzmunu və təlimdən alınan nəticələr haqqında məlumat

4.1. *Əyani*
(Təhsilin forması)

*4.2. Proqramın əsas məqsədi iqtisadi kibernetika sahəsində yüksək ixtisaslı mütəxəssis hazırlamaqdan ibarətdir. Bu sahə üzrə təhsil alanlar elmi-texniki problemləri, inkişaf perspektivlərini və onların qonşu sahələrlə əlaqəsini bilməli, onları konkret məsələlərin həllində tətbiq etməyi həmçinin iqtisadiyyatın müvafiq sahələri üzrə riyazi modelləri qurmağı bacarmlıdırlar.*
(proqramın məqsədi)

4.3.Proqram haqqında ətraflı məlumat:

| № | Fənlərin adı | Kreditlər | Saatlar | Qiymətlər |
|---|---|---|---|---|
| | ***1 kurs*** | | | |
| 1 | Tarix | 7 | 105 | 72 bal (yaxşı) |
| 2 | Xarici dil | 9 | 150 | 75 bal (yaxşı) |
| 3 | Azərbaycan (rus) dili və nitq mədəniyyəti | 6 | 90 | 86 bal (əla) |
| 4 | Ekonometrika | 8 | 120 | 87 bal (əla) |
| 5 | Riyaziyyat | 9 | 150 | 88 bal (əla) |
| 6 | İnformatika | 8 | 120 | 82 bal (yaxşı) |
| 7 | EHM-də praktika | | | |
| 8 | Müasir iqtisadiyyata giriş | | | |
| 9 | İqtisadi təlimlər tarixi | | | |
| 10 | İqtisadiyyat | | | |
| 11 | İqtisadi inteqrasiya və qloballaşma | | | |
| 12 | İxtisasa giriş və biblioqrafiyınan əsasları | | | |
| 13 | Bədən tərbiyəsi | | | |
| | ***2 kurs*** | | | |
| 1 | Fəlsəfə | | | |
| 2 | Psixologiya | | | |
| 3 | Xarici dil | | | |
| 4 | Riyaziyyat | | | |
| 5 | İnformatika | | | |
| 6 | Riyazi məntiq və diskret riyaziyyatın modelləri | | | |
| 7 | EHM-də praktika | | | |
| 8 | Beynəlxalq iqtisadi münasibətlər | | | |

| | | | | |
|---|---|---|---|---|
| 9 | Mühasibat uçotu və auditin əsasları | | | |
| 10 | Menecment və biznesin əsasları | | | |
| 11 | Marketinq | | | |
| 12 | Gəlir siyasəti və mikroiqtisadiyyat | | | |
| 13 | İqtisadi təhlildə optimallaşdırma üsulları | | | |
| 14 | İqtisadi informasiyaların işlənməsi sistemləri | | | |
| | ***3 kurs*** | | | |
| 1 | Politologiya və sosiologiya | | | |
| 2 | Diferensial tənliklər | | | |
| 3 | Ehtimal nəzəriyyəsi və riyazi statistika | | | |
| 4 | EHM-də praktika | | | |
| 5 | Statistika | | | |
| 6 | Maliyyə və maliyyə hüququ | | | |
| 7 | Dünya iqtisadiyyatı | | | |
| 8 | Strateji planlaşdırma və idarəetmə | | | |
| 9 | Sosial iqtisadi proqnozlaşdırma üsulları | | | |
| 10 | İqtisadiyyatın riyazi modelləri | | | |
| 11 | Əməliyyatlar tədqiqinin riyazi üsulları | | | |
| 12 | Tətbiqi iqtisadiyyatın elementləri | | | |
| 13 | Mülki müdafiə və tibbi biliklərin əsasları | | | |
| | ***4 kurs*** | | | |
| 1 | Hüququn əsasları və Azərbaycan Respublikasının Konstitusiyası | | | |
| 2 | Mədəniyyətşünaslıq | | | |
| 3 | İqtisadi təhsildə qərarların qəbul edilməsi prinsipləri | | | |
| 4 | Pul, kredit və banklar | | | |
| 5 | Qiymətin əmələ gəlməsi | | | |
| 6 | Vergi sistemi | | | |
| 7 | Avtomatlaşdırılmış idarəetmə sistemləri | | | |
| 8 | İqtisadi kibernetika | | | |
| 9 | İqtisadi və sosial proseslərin modelləşdirilməsi | | | |
| 10 | Aqrar sahənin iqtisadiyyatı | | | |
| 11 | İqtisadiyyatın dövlət tənzimlənməsi | | | |
| 12 | Maliyyə riyaziyyatı və informatikası | | | |

4.4. Qiymətləndirmə sistemi:

*Tələbənin biliyinin qiymətləndirməsi aşağıdakı sistemə uyğun həyata keçirilir: «Əla» - müsbət, «Yaxşı» - müsbət, «Kafi» - müsbət, «Qeyri-kafi» - mənfi, «Məqbul» - müsbət və «Qeyri-məqbul» - mənfi.*

*1999-cu ildən eksperiment şəklində çoxballı sistem tətbiq olunur.*

*Çoxballı sistem*:

*0-50 bal (qeyri-kafi) - mənfi*

*51-70 bal (kafi) - müsbət*

*71-85 bal (yaxşı) - müsbət*

*86-100 bal (əla) - müsbət*

4.5. Proqramın mənimsənilməsinin qiyməti:

*Kafi - 0*

*Yaxşı - 5*

*Əla - 33*

*Buraxılış işi - əla*

Yekun qiymət:
*Bakı* Dövlət Universitetini
*Fərqlənmə diplomu ilə*
*bitirmişdir*

## 5.İxtisas dərəcəsinin funksiyaları haqqında məlumat

5.1.*Ali təhsilin sonrakı - magistr pilləsində təhsilini davam etdirmək hüququ əldə edir*

(gələcəkdə təhsil almaq imkanları)

5.2.*Mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq müəssisə və təşkilatlarda ali iqtisadi təhsil tələb edən vəzifələrdə, orta ixtisas və texniki peşə məktəblərində müəllim işləyə bilər*

(professional status)

## 6.Əlavə məlumatlar:

*6.1. Bakı Dövlət Universiteti, Bakı şəhəri, Z.Xəlilov küç., 23. Tel.: (+99412) 4303245, 4390517. Faks: (+99412) 5983376. http://www.bsu.az, e-mail: bsu@bsu.az*

## *7.Milli təhsil sistemi haqqında məlumat*

***7.1. Ümumtəhsil məktəb sisteminin strukturu***
*İcbari təhsil - orta təhsildi (11-ci sinif)*
*İbtidai məktəb - 1-4-cü siniflər (6-10 yaşlılar)*
*Əsas məktəb - 5-9-cu siniflər (11-15 yaşlılar)*
*Orta təhsil - 10-11-ci siniflər (16-17 yaşlılar)*

***Peşə təhsili sistemi***

*Texniki- peşə təhsili:* *bu pilləyə əsas və ya orta ümumtəhsil məktəblərini bitirənlər qəbul olunurlar və proqramı yerinə yetirdikdən sonra müvafiq ixtisas dərəcəsini alırlar. Peşə litseylərini bitirənlər orta ixtisas təhsili müəssisələrində və ali təhsil müəssisələrinin bakalavr pilləsində qəbul imtahanlarında müvafiq keçid balı toplamaqla, təhsillərini davam etdirə bilərlər*

*Orta ixtisas təhsili:* *bu pillədə əsas, orta ümumtəhsil məktəblərini və peşə litseylərini bitirənlər qəbul olunurlar və proqramı yerinə yetirdikdən sonra müvafiq ixtisas dərəcəsini alırlar, ali təhsilin bakalavr pilləsində respublikada müəyyən olunmuş qaydada qəbul imtahanlarından müvəffəqiyyətlə keçməklə təhsillərini davam etdirə bilərlər. Mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq müəssisə və təşkilatlarda, texniki peşə məktəblərində, orta ixtisas təhsilini tələb edən digər struktur bölmələrində işləyə bilərlər.*

*Ali təhsil*
*Bakalavriat:* *Orta ümumtəhsil məktəblərinin, peşə litseylərinin və orta ixtisas təhsili müəssisələrini bitirənlər respublikada müəyyən olunmuş qaydada qəbul imtahanlarından müvəffəqiyyətlə keçməklə bu pilləyə qəbul oluna bilərlər. Bakalavr təhsil proqramlarını müvəffəqiyyətlə başa çatdıranlar müvafiq istiqamət (ixtisas) üzrə bakalavr dərəcəsini alırlar. Mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq müəssisə və*

*taşkilatlarda ali iqtisadi təhsil tələb edən vəzifələrdə, orta ixtisas və texniki peşə məktəblərində müəllim işləyə bilər.*

*Magistratura:* *Ali təhsil müəssisələrinin bakalavr pilləsini bitirənlər respublikada müəyyən olunmuş qaydada qəbul imtahanlarından müvəffəqiyyətlə keçməklə təhsillərini davam etdirə bilərlər. Magistr proqramını müvəffəqiyyətlə başa çatdıranlara magistr elmi və ixtisas dərəcəsi verilir. Mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq müəssisə və təşkilatlarda, ali təhsil, elmi-tədqiqat müəssisələrində, ali təhsili tələb edən digər vəzifələrdə işləyə bilərlər.*

*Doktorantura:* *Ali təhsilin magist pilləsini bitirənlər müvafiq ali təhsil müəssisələri tərəfindən müəyyən olunmuş qaydada doktoranturaya qəbul oluna bilərlər. Doktoranturanı bitirənlərə həmin sahə üzrə müvafiq elmi dərəcə verilir.*

Təlim azərbaycan dilində və təhsil müəssisələrinin imkanları daxilində digər xarici dillərdə həyata keçirilir.

## 8.Diploma əlavənin təsdiqlənməsi

Təqdim olunma tarixi:
________________

Əlavəni təsdiq edən şəxsin
vəziəsi və imzası

**M.Y.** _________________ ________
(rektor və ya prorektor)
_________________ ________
(fakultə dekanı)

____________________________
(Qeydiyyat nömrəsi)